# NAXÇIVAN MUXTAR RESPUBLİKASININ NAZİRLƏR KABİNETİ

# Q Ə R A R

**Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin "Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin strukturuna daxil olmayan tabeliyindəki qurumların siyahısının təsdiq edilməsi haqqında" 2011-ci il 26 noyabr tarixli 98 nömrəli Qərarında dəyişiklik edilməsi və "Duzdağ Fizioterapiya Mərkəzi" publik hüquqi şəxsinin işçiləri üçün stimullaşdırıcı əlavələrin həddinin təsdiq edilməsi haqqında" 2018-ci il 13 sentyabr tarixli 151 nömrəli Qərarının ləğv edilməsi barədə**

"Duzdağ Fizioterapiya Mərkəzi" publik hüquqi şəxsin ləğv edilməsi və əmlakının Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyinə verilməsi haqqında" Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 2024-cü il 8 aprel tarixli 452-06/S nömrəli Sərəncamının 2.2-ci bəndinin icrasını təmin etmək məqsədilə Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2011-ci il 26 noyabr tarixli 98 nömrəli Qərarı ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin strukturuna daxil olmayan tabeliyindəki qurumların Siyahısı"nın 1.4-cü bəndi ləğv edilsin.

2. "Duzdağ Fizioterapiya Mərkəzi" publik hüquqi şəxsinin işçiləri üçün stimullaşdırıcı əlavələrin həddinin təsdiq edilməsi haqqında" Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2018-ci il 13 sentyabr tarixli 151 nömrəli Qərarı ləğv edilsin.

3. Bu Qərar imzalandığı gündən qüvvəyə minir.

**Naxçıvan Muxtar Respublikasının Baş naziri** **Ceyhun Cəlilov**

Naxçıvan şəhəri, " 11 " iyun 2024-cü il

№ 45